# İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1. Büdcənin ümumi göstəriciləri**

İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsinin gəlirləri 238 000 000,0 manat, xərcləri 238 000000,0 manat məbləğində təsdiq edilir.

**Maddə 2. Gəlirlər**

Müəyyən edilsin ki, 2024-cü ildə işsizlikdən sığorta fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | İşsizlikdən sığorta üzrə sığorta haqları, cəmi o cümlədən: | 179 976 800,0 |
| 2.1.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 22 688 400,0 |
| 2.1.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 22 688 400,0 |
| 2.1.3. | qeyri-büdcə sektoru üzrə | 134 600 000,0 |
| 2.2. | Sair gəlirlər | 70 000,0 |
| 2.3. | 2023-cü ilin sonuna işsizlikdən sığorta fondunun istifadə olunmamış vəsaiti | 57 953 200,0 |

**Maddə 3. Xərclər**

Müəyyən edilsin ki, işsizlikdən sığorta fondunun 2024-cü il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| 3.1. | İşsizliyə görə sığorta ödənişləri | 15 000 000,0 |
| 3.2. | Peşə hazırlığı və əlavə təhsilin təşkili | 35 000 000,0 |
| 3.3. | Peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsi | 1 500 000,0 |
| 3.4. | Əmək yarmarkalarının, əmək birjalarının təşkili | 500 000,0 |
| 3.5. | Haqqı ödənilən ictimai işlərin təşkili | 5 000 000,0 |
| 3.6. | Özünüməşğulluq tədbirlərinin təşkili | 73 000 000,0 |
| 3.7. | Sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi | 4 000 000,0 |
| 3.8. | Peşə standartlarının hazırlanması | 1 000 000,0 |
| 3.9. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) saxlanılması xərcləri | 55 000 000,0 |
| 3.10. | Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) əhaliyə sosial sahədə xidmətlərin təşkili üzrə fəaliyyətinin müştərək maliyyələşdirilməsi xərcləri | 45 000 000,0 |
| 3.11. | Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması üçün kvotadan əlavə iş yerlərinin yaradılması | 1 000 000,0 |
| 3.12. | Sosial müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi | 1 000 000,0 |
| 3.13. | Qanunla əmək hüququnun həyata keçirilməsi üçün nəzərdə tutulmuş digər aktiv tədbirlər | 1 000 000,0 |

**Maddə 4. Qalıqlardan istifadə**

İşsizlikdən sığorta fondunun (o cümlədən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) aparatının və digər struktur bölmələrinin) hesablarında qalan sərbəst vəsait "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq növbəti ilin xərclərinin maliyyələşdirilməsinə və (və ya) müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən investisiyaya yönəldilir.

**Maddə 5. Bu Qanunun qüvvəyə minməsi**

Bu Qanun 2024-cü il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2023-cü il*

Azərbaycan. - 2023.- 27 dekabr (№ 284).- S.9.